**Qalibiyyətlə başa çatmış İkinci Qarabağ savaşının birinci ildönümü ərəfəsində qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın xüsusi təyyarəsi Azərbaycanın işğaldan azad edilmiş Füzuli rayonunda yeni inşa olunmuş beynəlxalq hava limanına enmişdir. O, Azərbaycanın dövlət başçısı İlham Əliyevlə birlikdə həmin hava limanının rəsmi açılışında və Zəngəzur dəhlizinə gedən yolun təməlqoyma mərasimində iştirak etmişdir. Beləliklə, bir neçə ay əvvəl iki qardaş ölkə arasında dostluq, əməkdaşlıq və müttəfiqliyin dərinləşməsinə, həmçinin bölgədə sülhün və sabitliyin möhkəmlənməsinə təminat verən Şuşa Bəyannaməsinin reallaşması yolunda konkret addımlar atılmağa başlanmışdır. Halbuki, bir il bundan əvvələ qədər nə Füzuli rayonu, nə də Şuşa şəhəri Azərbaycanın nəzarətində deyildi. Qarabağın bir çox bölgələri ilə yanaşı, bu ərazilər də 30 ilə yaxın idi ki, Ermənistan ordusunun işğalı altında qalmışdı. Ona görə də 2020-ci il sentyabrın 27-də erməni təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarının başlanması ölkənin hər yerində ümid və sevinclə qarşılandı.**

# Qələbəmizin memarı

Müharibənin qan-qada, ölüm-itim olmasına, insanlara dəhşət və fəlakət, iztirab və kədər yaşatmasına baxmayaraq, Azərbaycan xalqı öz əzəli torpaqlarını işğaldan azad etmək, ölkənin ərazi bütövlüyünü təmin etmək üçün başlanmış bu hərb qovğasına sevinirdi. Hələ bundan bir müddət əvvəl işğalçı Ermənistanın iyul ayında Tovuz rayonu ərazisində dövlət sərhədini pozması, ardınca ölkəmizə qarşı təxribat qrupları göndərməsi Azərbaycanın səbr kasasını daşırmışdı. Ona görə də illər boyu daşa dəyib çiliklənən ümidlər ötən ilin payızında yenidən cücərərək, bu dəfə xalqa "Qələbə mütləq Azərbaycanın olacaq" inamını aşılayırdı. Odur ki, bütün xalq ölkədə hərbi vəziyyət elan edilməsini az qala bayram kimi qarşılayırdı.

Adətən, hər hansı ölkədə hərbi vəziyyət, ardınca da səfərbərlik elan edilməsi elə hadisələrdir ki, dünyanın hər yerində insanlarda təşviş, nigaranlıq, narahatlıq yaradır. Lakin Azərbaycan insanı bütün bunları sonsuz sevinclə, şövqlə qarşıladı. Sanki bu hərbi vəziyyət və səfərbərlik elanı ürəklərdən asılmış ağır daşı götürdü, hamı dərindən köks ötürərək "Axır ki!" dedi. Hamı yaxşı anlayırdı ki, hərbi vəziyyət elan edilirsə, səfərbərlik varsa, bu, odlu cəbhələr deməkdir, bunun ardında ölüm-itim də var, qan-qada da. Amma, Azərbaycan fərəhlənir, bütün ölkəni o əzm, o yekdillik, o böyük ideal qovuşdurur ki, nəhayət, düşmən tapdağında olan torpaqlarımızı azad edə biləcəyik. Bu inam və əminlik xalqın içindən gəlirdi və tarix bu inamın əbəs olmadığını göstərdi, İkinci Qarabağ savaşı Azərbaycan xalqının erməni işğalçıları üzərində parlaq hərbi-siyasi Qələbəsi – möhtəşəm Zəfəri ilə sona çatdı.

Siyasi təhlilçilər, ictimai xadimlər və hərbi əməliyyatların gedişatını izləyən ekspertlər Azərbaycanın işğalçı Ermənistan üzərində bu parlaq qələbəsinin beş əsas səbəbini göstərirlər: 1) Azərbaycan Ordusunun yüksək döyüş hazırlıqlı olması, ən müasir döyüş vasitələri, o cümlədən müasir texnologiya ilə təmin edilməsi; 2) ölkənin yüksək iqtisadi potensialı; 3) müharibə dövründə Azərbaycan xalqının monolit birliyi; 4) Azərbaycan diplomatiyasının müharibə ərəfəsində atdığı uğurlu preventiv addımlar; 5) hərbi-siyasi proseslərə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərlik etməsi, onun yüksək siyasi-diplomatik və hərbi məharəti.

Çox dəqiq müəyyən edilmiş bu amillər içərisində sonuncu faktora xüsusi diqqət yetirmək lazım gəlir. Çünki əvvəlki dörd səbəb də elə sonuncu faktorla, yəni Prezident İlham Əliyevin 44 günlük müharibə dövründə nümayiş etdirdiyi hərbi-siyasi bacarıqların nümayişi və sərkərdəlik istedadı ilə birbaşa bağlıdır. Yəni, Azərbaycan Ordususnun yüksək döyüş hazırlığı, ən müasir döyüş vasitələri, o cümlədən müasir texnologiya ilə təmin edilməsi də, ölkənin yüksək iqtisadi potensialının formalaşdırılması da, müharibə dövründə Azərbaycan xalqının monolit birliyi və Azərbaycan diplomatiyasının müharibə ərəfəsində uğurlu preventiv addımların atması da birbaşa dövlət başçısı İlham Əliyevin yürütdüyü düşünülmüş siyasi xətlə əlaqədardır.

Hərbi əməliyyatlarının başlandığı ilk saatlardaca dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev həm xalqa müraciətində, həm də dünya KİV-dəki çıxışlarında Azərbaycanın haqq işini bəyan etmiş, birmənalı şəkildə ölkənin ərazi bütövlüyünün təmin olunacağını bildirmişdir. Onun Vətən müharibəsi ilə bağlı xalqa ilk müraciəti ümidlərə nur çiləmiş, işğal altında olan Qarabağın, digər yurd yerlərinin azad ediləcəyinə inamı qat-qat artırmışdı.

Ali Baş Komandan Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının müntəzəm xarakter aldığını, 27 sentyabr tarixində səhər tezdən düşmənin silahlı qüvvələrinin hərbi mövqelərimizi və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutduğunu, mülki əhali və hərbçilərimiz arasında itkilərin, həmçinin şəhidlərin və yaralananların olduğunu, onların qanının yerdə qalmayacağını söyləmişdi. Dövlət başçısı erməni faşizminin növbəti təzahürünün aradan qaldırılması üçün ordumuzun elə həmin saatlardan düşmənə sarsıdıcı zərbələr endirdiyini, qarşı tərəfin hərbi texnikasının sıradan çıxarıldığını diqqətə çatdırmışdı. Bu çıxışda hələ 2020-ci ilin iyul ayında Tovuz istiqamətində düşmənin törətdiyi hərbi təxribat, avqustda ölkəmizə qarşı planlaşdırılmış diversiya qrupunun göndərilməsi Ermənistan hərbi-siyasi rəhbərliyinin yeni ərazilər zəbt etmək niyyətləri xüsusi vurğulanmışdır.

Siyasi analitiklərin də yazdığı kimi, 2020-ci il sentyabrın 27-də onun imzaladığı ölkədə hərbi vəziyyət elan edilməsi haqqında fərman da, elə həmin gün xalqa müraciəti də əvvəlkilərin hamısından ciddi şəkildə fərqlənir. Bu, müasir həyatımızın və əslində, vaxt ötdükcə bəlli olacaq ki, bütöv tariximizin də ən həlledici məqamları kimi, qavranılmağa layiqdir. Əslində, bu qətiyyətli addımlar elə dövlət başçısının özünün də siyasi bioqrafiyasında həmişə ən parlaq səhifələr kimi qalacaq.

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin özü və bütün Azərbaycan üçün narahat açılan 27 sentyabr səhərində atdığı ilk addımlar – hərbi vəziyyət elan edilməsi haqqında həmin fərman, xalqa müraciəti, Təhlükəsizlik Şurasının iclasını keçirməsi və oradakı çıxışının vətəndaşlarımıza çatdırılması hər kəsin içərisində bir ümid çırağı yandırdı, insanlarımızı bütün ölkə boyu böyükdən kiçiyə daxilən səfərbər etdi. Sayılan dəqiqələr ərzində Azərbaycan bir yumruğa çevrildi.

Əslində, Prezident İlham Əliyevin xalqa 27 sentyabr (2020) müraciəti ilə Azərbaycanın yeni tarixi yazılır, Ermənistanın qan çanağına çevirmək istədiyi Cənubi Qafqazda yeni geosiyasi münasibətlərin təməl daşları atılırdı. Çünki Azərbaycan tarixinin şanlı səhifələrinin qızıl sətirlərini təşkil edən bu müraciət öz fəlsəfi qayəsi, müdrik təsbitləri, təsdiq və çağırışları ilə həqiqət və cəsarətin nümunəsi kimi həm xalqı, həm də onun şanlı ordusunu qələbəyə ruhlandırırdı. Azərbaycan cəmiyyəti bu müraciətdə "öz dövlət başçısının xalqın, dövlətin maraqları naminə dünyanı qarşısına alacaq qədər böyük qətiyyətini bir daha gördü. Cənab Prezidentin qətiyyəti, titanik fəaliyyəti ön cəbhədə hərbçilərimizin, xarici cəbhədə diplomatlarımızın ilham mənbəyi"nə çevrildi. Dövlət başçısının xalqa bu müraciətində ilk növbədə Azərbaycanın haqlı mövqeyinin danılmaz faktlarla ifadəsi var idi. Eyni zamanda, Azərbaycanın sülhə, danışıqlara həmişə hazır olduğu, lakin bundan sonra mənasız danışıqlara vaxt itirməyəcəyi, Ordu – xalq, dövlət – xalq birliyinin sarsılmazlığı kimi müddəalar, eləcə də Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətinin ifşası bu müraciətdə yer almışdı.

Müzəffər Azərbaycan Ordusunun başladığı qətiyyətli əks-hücum əməliyyatları, haqlı savaş ilk növbədə regionda təhlükə mənbəyi olan Ermənistanın çirkin işğalçılıq və mülki əhaliyə qarşı terror siyasətinə qarşı yönəlmişdi. Cəmi 44 gün çəkən İkinci Qarabağ müharibəsinin məqsədi bütün dünyanın Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığı Qarabağın düşmən tapdağından təmizlənməsi, yurd yerlərimizin azad edilməsi idi. Azərbyacan beynəlxalq hüquqa və ədalətə söykənərək öz torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir, erməni işğalına son qoymaq üçün işğal edilmiş əraziləri addım-addım azad edir, ölkəninin ərazi bütövlüyünü qoruyurdu. Azərbaycan öz ərazisində, öz əraziləri uğrunda, həm də bir ölkə olaraq öz heysiyyəti uğrunda çarpışırdı. Bu haqq savaşına isə ölkənin birinci şəxsi, Azərbycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev birbaşa rəhbərlik edirdi.

Dövlət başçısı Vətən müharibəsi günlərində titanik fəaliyyəti ilə dünya liderlərinə nümunə olacaq davranışlar sərgiləyirdi. O, bir tərəfdən hərbi əməliyyatlara rəhbərlik edir, döyüş əməliyyatları və arxa cəbhənin işini tənzimləyir, həm dünya dövlətlərinin başçıları ilə siyasi-diplomatik danışıqlar aparır, həm də xarici KİV-ə müsahibələr verərək Azərbaycana qarşı aparılan informasiya müharibəsini məharətlə dəf edirdi. Ən başlıcası isə uğurlu hərbi əməliyyatların gedişi və qazanılan hərbi nailiyyətlər barədə şəxsən özü ölkə ictimaiyyətinə məlumatlar verir, "Biz haqq yolundayıq, bizim işimiz haqq işidir! Biz Zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" – kimi indi dillər əzbəri olmuş möhtəşəm çağırış və şüarlarla xalqımızı ruhlandırırdı.

Prezident İlham Əliyevin müharibə dövründəki çıxış, yazı və müsahibələrində qətiyyətlə söylədiyi fikirlər hər bir soydaşımızda həm haqq işimizin labüd qələbəsinə bir yəqinlik yaradır, həm də mübarizə əzmimizi artırırdı. Bu, bir həqiqətdir ki, hər hansı bir savaşda qələbənin rəhni ruh yüksəkliyi, döyüş əzmi, möhkəm iradədir. Məhz bu amillər, üstəgəl həmrəylik, müdrik sərkərdəmizin rəhbərliyi ilə ordu və xalqın birliyi bizə möhtəşəm Zəfərimizin sevincini bəxş etdi. Bu coşqu, fərəh hissini heç nə ilə müqayisə etmək olmaz. Həmin günlərdə yaşananlar bir daha sübut etdi ki, insanın ömrü boyu unutmadığı bütün sevinc anları doğma yurd yerlərimizin azad edilməsi ilə bağlı yaşanan fərəh duyğusunun yanında zəif bir işartı imiş. Ona görə də bu gün xalqımız ona qələbə sevincini yaşatmış ölkə Prezidenti və Ali Baş Komandanla və onun rəhbərlik etdiyi müzəffər Milli Ordumuzla qürur duyur.

Əslində, tarixi və ideoloji nöqteyi-nəzərdən Azərbaycanın işğalçı Ermənistan üzərində qələbəsi 2020-ci il fevralın 15-də Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransındakı tarixi çıxışından başlayır. Həmin gün müasir Azərbaycan tarixinin ən həlledici günlərindən biri kimi yadda saxlanmalıdır. Çünki məhz həmin gün Prezident İlham Əliyevin çaldığı mənəvi-intellektual zəfər sonun başlanğıcı sayıla bilər. Bu, hamıya – Ermənistana və bütün dünyaya bir xəbərdarlıq idi ki, lap yaxın zamanlarda məhz belə olacaq – təcavüzkar Ermənistan diz çökdürüləcək, terrorizmi dövlət siyasətinə çevirmiş işğalçı ölkə darmadağın ediləcək. Azərbaycanın dövlət başçısı II Qarabağ savaşında bu niyyətini təkcə döyüş meydanında deyil, həm də informasiya sahəsində böyük məharətlə gerçəkləşdirdi. Və bu məsələdə onun xarici ölkə KİV-inə verdiyi parlaq müsahibələr də öz tarixi rolunu oynadı. Üz-üzə dayanan Həqiqət və Yalan savaşında Azərbaycan reallığı qalib gəldi.

Vətən müharibəsi boyu – 44 gün müddətində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması ilə bağlı ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin informasiya cəbhəsində misli görünməmiş fəaliyyəti onun digər sahələrdəki xidmətləri kimi tarixi rəşadət nümunəsidir. Döyüş əməliyyatları dövründə Prezident İlham Əliyevin dünyanın BBC, "Əl-Cəzirə", ARD, RBK TV, RİA Novosti, TASS, İnterfaks, Türkiyənin TRT-Haber, CNN-Türk, Haber Global TV, Haber Türk TV, NTV, A Haber TV kimi aparıcı kütləvi informasiya vasitələrinə verdiyi və nadir bir silsilə təşkil edən müsahibələrdə 30 ildən bəri davam edən Qarabağ münaqişəsi və onun ikinci qaynar mərhələsi ətrafında beynəlxalq aləmi düşündürən, narahat edən zəruri və obyektiv, bəzən də qərəzli və bədxah suallara Azərbaycan dövlətinin adından verilən – münaqişənin mahiyyətini açıb göstərən, bu vaxtadək erməni yalan və böhtanları ilə pərdələnmiş həqiqətlərə işıq salan mötəbər, əhatəli və tarixi önəm daşıyan cavablar öz əksini tapmışdır.

Cənab İlham Əliyev informasiya müharibəsi ilə döyüş əməliyyatlarını paralel şəkildə aparmaq məharətini bütün dünyaya nümayiş etdirdi. Məhz onun rəhbərlik etdiyi müzəffər Azərbaycan Ordusu ən müasir silahlarla və mailk olduğu döyüş taktikası ilə "Dəmir yumruq" əməliyyatını gerçəkləşdirərək, 44 gün ərzində 5 şəhəri, 4 iri qəsəbəni, 300-ə yaxın yaşayış məntəqəsini, strateji yüksəklikləri, ən başlıcası Azərbaycan xalqının məğrurluq və qürur rəmzi olan Şuşa şəhərini işğaldan azad etdi. Ona görə də "Biz bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, mətin iradə sahibi kimi!" – deyən Ali Baş Komandanın bu mesajı tarixi ədalətin bərqərar olmasının bütün dünyaya diktəsi idi. Fəxr-fəxarət hissi keçiririk ki, qalib ordumuz Zəfər çalmaqla adını dünya hərb tarixinə həkk edib. Əsirlikdə qalan torpaqlarımızın düşməndən azad edilməsi müdrik rəhbərimizin dönməz iradəsinin, ordumuzun əzmkarlığının göstəricisidir. Müzəffər ordumuz gündən-günə artan ruh yüksəkliyi, mübarizə əzmi və sərkərdəsinin qətiyyəti ilə çağdaş günümüzdə tarix yazıb. Bu qəhrəmanlıq tarixi həm də əsgər və zabitlərimizin şücaəti, hünəri ilə yazılıb.

2003-cü ildən bu günə kimi hərbi xərclərə ayrılan vəsaitin məbləği 15 dəfədən çox artırılmışdır. Son illərdə yaradılmış 20-dən çox hərbi zavodlarda 1200 addan çox hərbi təyinatlı məhsulların istehsalına başlanmışdır. Ordumuz üçün ən müasir texnika və silahlar alınmışdır. Onların arasında zirehli texnika, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, döyüş təyyarələri, ən müasir pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemlərini və sair göstərmək olar. Azərbaycan Ordusu maddi-texniki təchizatı baxımından dünya miqyasında nadir ölkələrindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Rəşadətli Ordumuz tərəfindən qazanılan bu Zəfər Azərbaycan tarixində əbədi qalacaqdır.

Müharibə təkcə Azərbaycan Ordusunun hərbi qüdrətini və döyüş qabiliyyətini deyil, həm də bir dövlət kimi onun siyasi nüfuzunu, dostlarını və müttəfiqlərini də dünyaya tanıtdı. Bu mənada savaşın ilk günlərindən bizə dəstək olan dövlətləri və xalqları unutmamalıyıq. Bizimlə qəlbi bir vuran Türkiyəni, hər addımda yanımızda olan Pakistanı, ən müxtəlif sahələrdə və müstəvilərdə sonadək bizi dəstəkləyən İsraili, dünyanın geosiyasi nəhənglərinin Azərbaycana qarşı hücumlarının qarşısını alan Böyük Britaniyanı, bizə qardaş dəstəyini əsirgəməyən Ukraynanı, savaş günlərində Azərbaycan üçün əlindən gələni etmiş dost Gürcüstanı, eyni sədaqəti göstərmiş Belarusu, habelə Çexiyanı, Avropa Birliyində danışan dilimizə çevrilmiş İtaliyanı, Yaponiyanı, Cənubi Koreyanı, eləcə də Əfqanıstanı, Qətəri, Sinqapuru, Kubanı, Monteneqronu, Venesuelanı, Tunisi və başqa dost ölkələrin Azərbaycan xalqına sayğısını unutmaq mümkünsüzdür. Heç şübhəsiz ki, bu xidmətlər də Prezident İlham Əliyevin diplomatik məharəti, xüsusən Azərbaycanın BMT Təhlükəsizlik Şurasına və Qoşulmama Hərəkatına üzv olan ölkələrlə ikitərəfli münasibəti və Qoşulmama Hərəkatı çərçivəsində atdığı preventiv addımlar sayəsində mümkün olmuşdur.

Bu gün inkişaf etmiş digər ölkələr kimi, Azərbaycanın da təcrübələri beynəlxalq səviyyədə diqqəti çəkir. Prezident İlham Əliyev öz innovativ təşəbbüsləri, kreativ düşüncə tərzi ilə dünyada saysız-hesabsız uğurlara imza atan siyasi liderlərdən biri kimi tanınır. Onun rəhbərliyi ilə ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz və söz sahibinə çevrilib, etibarlı tərəfdaş kimi qəbul edilir.

İkinci Qarabağ savaşında Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri də ölkə daxilində xalq, hakimiyyət və ordu birliyini, həmçinin cəmiyyətdə sıx birliyi təmin etmək oldu. Bunun da sayəsində heç bir kənar qüvvə pozuculuq niyyətini gerçəkləşdirə bilmədi. Unudulmaz 44 gün ərzində hər birimiz bu möhtəşəm həmrəyliyin şahidi olduq. Dövlət, xalq və ordu birliyinin qüdrətini gördük. Bu sıx vəhdət ürəyimizdə fəxarət duyğusu yaratdı. Xalqımız bütün dünyaya, bizi dəstəkləyən və dəstəkləməyən dövlətlərə haqq işi naminə bir yumruqtək birləşmək nümunəsi göstərdi. Çünki Vətənimiz düşmənin strateji nöqtələrini sərrast nişan alan, hədəfi iti görən qartal baxışlı, aslan pəncəli, təpərli oğullarına güvənirdi. İşğal altında olan torpaqlarımızı buxovdan, qandaldan məhz bu oğullar qurtardılar. Birinci Qarabağ savaşında döyüşmüş cəsur oğul və qızlarımızın bu dəfə övladları odlu cəbhələrdə Zəfər yürüşünə çıxıb, düşmənə qan uddurdu. Uzun müddətdən bəri bağlanmış, kol-kos basmış yollarımız açıldı. Otuz il əsirlikdə qalan torpaqlarımız indi öz gerçək sahiblərinin nəfəsi ilə isinməkdədir.

Qırx dörd günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad olunmasını təmin etmiş və üzərində parlaq Qələbəmizin memarı olmuş dövlət başçısı İlham Əliyev bu gün də eyni şövqlə həmin ərazilərdə aparılan tikinti quruculuq işlərinə rəhbərlik edir. Onun rəhbərliyi sayəsində ərazi bütövlüyünü təmin etmiş Azərbaycan indi müstəqillik yollarında daha inamlı və qətiyyətli addımlar atır.

***Mahirə YAQUBOVA,***
***ADMİU-nun dosenti,***
***Əməkdar artist***




